BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2007

# TURİSTLƏRİN HÜQUQİ STATUSU PROBLEMİ: BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQİ ASPEKTLƏR

**Ə.İ.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***

Getdikcə genişlənən beynəlxalq münasibətlər, dövlətlərin iqtisadi və siyasi inteqrasiyasının gün-gündən artması turizm sferasında meydana çıxan münasibətlərin beynəlxalq və milli səviyyədə tənzimlənməsi, mövcud sahədəki əməkdaşlığın daha da dərinləşdirilməsini tələb edir. Şübhəsiz ki, bütün bu vəzifələrin həllində beynəlxalq turizmin iştirakçılarından biri qismində çıxış edən turistlərin hüquqi statusunun beynəlxalq və milli hüquqi aspektlərinin üzə çıxarılması mühüm əhəmiyyət kəsb edir. Turistlərin hüquqi statusundan danışarkən, ilk növbədə «turist» anlayışının tərifi verilməli, ona aid edilən şəxslərin dairəsi müəyyən edilməlidir. Onu da qeyd etmək lazımdır ki, terminin üzə çıxarılmasında hüquq normaları (beynəlxalq və ya milli) vacib rol oynadığına görə onların təsbit olunduğu aktların təhlil edilməsi zəruri əhəmiyyətə malikdir. Belə ki, 1963-cü ilin avqust ayının 21-dən sentyabrın 5-ə qədər Roma şəhərində keçirilmiş Beynəlxalq turizm və səyahətlər üzrə BMT Konfransının sənədlərində «müvəqqəti gələn» anlayışı kontekstində «turist» və «ekskursant» terminlərinin müəyyən edilməsi istiqamətində mühüm addımlar atılmışdır. Məhz ona görə də BMT İqtisadi və Sosial Şurasının 870 (XXXİİİ) nömrəli Qətnaməsinin 5-ci bəndinə uyğun olaraq Konfrans «müvəqqəti gələn» anlayışının müvafiq tərifinə (müvəqqəti gələn dedikdə, adi yaşayış yeri olan ölkədən başqa hər hansı başqa ölkəyə, gəldiyi ölkədə haqqı ödənilən peşəkar fəaliyyətlə məşğul olması istisna olmaqla, digər hər hansı səbəbə görə gələn şəxs başa düşülür) baxılmaq üçün BMT Statistika Komissiyasına və Rəsmi Turist Təşkilatlarının Beynəlxalq İttifaqına (RTTBİ) təklif göndərmişdi. Onun tərkib hissəsi kimi çıxış edən turistlərə isə aşağıdakılar aid edilirdi: istirahət, məzuniyyət, müalicə, təhsil, din, idman; işgüzar məqsədlər, ailə vəziyyəti, ezamiyyətlər və konfranslarda iştirak etmək məqsədilə gəldikləri ölkədə ən azı 24 saat olan müvəqqəti gələnlər (1).

Bundan əlavə, göstərilirdi ki, hüquqi mənada ölkəyə gəlmədən səyahət edən şəxslər (təyyarə ilə səyahət edən, hava limanının tranzit zonasını tərk etməyən şəxslər və ya analoji hallar) həmin sıraya daxil edilməməlidir (2). 1954-cü il tarixli Turistlər üçün gömrük güzəştləri haqqında Konvensiyanın 1-ci maddəsi də turist kimi adətən yaşadığı dövlət istisna olmaqla, Konvensiyanın digər üzv-dövlətinin ərazisində istənilən 12 aylıq dövr ərzində 24 saatdan az, 6 aydan çox olmayan müddətdə (immiqrasiya etmək istisna olmaqla) qanunla icazə verilmiş əsaslar

- turizm, əyləncə, idman, sağlamlıq, ailə vəziyyəti, təhsil, dini ziyarət və ya işgüzar məqsədlərlə qalan şəxsləri müəyyən edir (3). Yuxarıdakı hər iki tərifi müqayisə etsək görərik ki, sonuncu daha dolğun şəkildə ifadə olunmuşdur. Çünki o, turist statusunun əldə edilməsi ilə bağlı zaman meyarının dəqiq hüdudlarını təsbit etmişdir. Bundan əlavə, birincidə göstərilməyən bir sıra əlamətləri də (turizm və s.) turistlərlə əlaqələndirmişdir. Həm də şəxsin turist sayılmasına maneə ola biləcək konkret halı – immiqrasiya məqsədilə səyahət etməni də göstərmişdir. Şübhəsiz ki, bu da gömrük güzəştlərinin müəyyən edilməsi zamanı «turist» anlayışına daxil edilən şəxslərin dəqiq dairəsinin üzə çıxarılmasında mühüm əhəmiyyətə malikdir. O, həm də turist adı altında digər məqsədlərlə daxil olmanın qarşısını almağa yönəlmişdir.

Onu da qeyd etmək lazımdır ki, «turist» anlayışının işlənib hazırlanması zamanı müxtəlif meyarların nəzərə alınması tendensiyası da əsas götürülməlidir. Məsələn, statistik məqsəd, qeyri-qanuni miqrasiyadan müdafiə məqsədi, ümumilikdə beynəlxalq turizmi insanların digər yerdəyişmə növlərindən (qısa və uzunmüddətli miqrasiya, köçərilik, qaçqınların yerdəyişməsi, diplomatik və konsulluq nümayəndələrinin xidmət etdiyi ərazi ilə öz dövləti arasındakı səyahət, yuxarıda göstərilən şəxslərin ailə üzvləri və ev qulluqçularının səyahəti, peşə zərurəti üzrə mühazirəçilərin, artistlərin və olduğu dövlətdə mükafat alan digər şəxslərin mütəmadi səfərləri) fərqləndirən ümumi yanaşma və s.

Turistlərin hüquqi statusunun müəyyənləşdirilməsində turizm statistikası üzrə tövsiyələrin də mühüm rolu vardır ki, bu da daha çox orada «beynəlxalq səyahətçi» və «daxili səyahətçi» terminindən istifadə olunması və onların izah edilməsi ilə əlaqədardır. Belə ki, beynəlxalq səyahətçi dedikdə, daimi yaşadığı ölkənin hüdudlarından kənara səyahət edən (səyahətin məqsədi və piyada səyahət etmək də daxil olmaqla, istifadə olunan nəqliyyat vasitələrindən asılı olmayaraq) istənilən şəxs başa düşülür. Bundan əlavə, daxili səyahətçilər kateqoriyasına daimi yaşadığı ölkənin daxilində səyahət edən (səyahətin məqsədi və piyada səyahət etmək də daxil olmaqla, istifadə olunan nəqliyyat vasitələrindən asılı olmayaraq) şəxslər qrupu aid edilir. Göstərilənlərdən əlavə, səyahətçilərin özləri də iki qrupa – gələnlər və digər səyahətçilər adlanan kateqoriyalara bölünməsi ilə bağlı müddəanın da qeyd edilməsi turizmin statistikası üzrə tövsiyələrin tərkib hissəsini təşkil edir. Ümumilikdə isə turizmlə məşğul olan bütün səyahətçilərin gələnlər hesab edilməsi də onun əsas tələbindən irəli gəlir. Həmçinin, statistika məqsədilə «gələn» terminin mənası izah olunur. Belə ki, həmin şəxslərə 12 aydan artıq olmayan müddətdə onların adi mühitindən kənarda hər hansı bir yerə səyahət edən və səyahətinin əsas məqsədi baş çəkdiyi ərazilərdə ödənişli fəaliyyətlə məşğul olmaq sayılmayan istənilən fərdlər aiddir. Bütün bunlarla yanaşı, turizmin statistikası məqsədilə və onun əsas tiplərinə uyğun olaraq gələnlərin aşağıdakı təsnifatı da təsbit edilmişdir:

- Beynəlxalq gələnlər. Müvafiq kateqoriya isə öz növbəsində turistlərə (gecələyən səyahətçilərə ) və birgünlük gələnlərə bölünür.
- Daxili gələnlər. Göstərilən qrup struktur etibarilə yuxarıdakı ilə eynilik təşkil edir (4).

1976-cı ildə EKOSOK çərçivəsində hazırlanan «Beynəlxalq turizmin statistikası üzrə rəhbər prinsiplərinin Layihəsi»ndə də əsas diqqət «turist-qeyri-rezident» anlayışının müəyyən edilməsinə, o cümlədən

göstərilmiş şəxslər barəsində statistik məlumatların təsnifatı və onların tərtib olunması metodlarının üzə çıxarılmasına yönəlmişdir. Həmin sənəddə «qeyri-rezident-gəlmə» anlayışı izah edilərkən buraya gəlişinin məqsəd və müddəalarından asılı olaraq aşağıdakı şəxslər aid edilir: sağlamlıq, idman, istirahət, dini konfranslarda, idman yarışlarında iştirak etmək və s. məqsədlərlə və ya ailə vəziyyəti ilə əlaqədar gələn şəxslər; dayanacaqda və ya dokda (gəmi təmir olunan yerdə) yerləşdirilmiş xarici təyyarə və gəmilərin ekipaj üzvləri; müvafiq ölkədə bir ildən az olaraq yaşamalı olan əcnəbi iş adamları; rəsmi diplomatlar, konsul nümayəndələri və həmin dövlətdə yerləşən xarici ölkənin silahlı qüvvələrinin qulluqçuları; getdiyi ölkənin vətəndaşı olmayan və orada bir ildən az olmayaraq ezamiyyətdə olan beynəlxalq təşkilatların əməkdaşları. 1976-cı ilin noyabr ayında Statistika Komissiyasının 19-cu sessiyasında qəbul edilmiş «Beynəlxalq miqrasiya statistikası üzrə BMT Tövsiyəsi»nin 60-cı bəndinə müvafiq olaraq, müvəqqəti gələn şəxslərin səyahətçilərin digər dərəcələrindən ayrılmasını şərtləndirən meyarlar müəyyən edildi (5). «Turist» termininin tərifinin verilməsində müvafiq regional beynəlxalq aktlar da çox fəal şəkildə çıxış edirlər. Belə ki, Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyası tərəfindən 1994-cü ilin oktyabr ayının 29-da qəbul edilmiş «Turizm sahəsində MDB iştirakçı-dövlətlərinin əməkdaşlığının əsas prinsipləri haqqında Tövsiyəedici Qanunvericilik Aktı»nda da «turist» termininin tərifi təsbit olunmuşdur. Belə ki, müvafiq Aktda turist statusunun əldə olunması üçün bir sıra meyarlar müəyyən edilmişdir. Onlara aşağıdakılar şamil olunur: səyahətin əyləncə və ya işgüzar məqsədlə həyata keçirilməsi; səyahətin zaman hədlərinin 24 saat-6 ay çərçivəsində məhdudlaşdırılması; turistin müvəqqəti olaraq gəldiyi yerdə ödənişli fəaliyyətlə məşğul olmaması (6). Müvafiq anlayışın müəyyənləşdirilməsində müvafiq dövlətdaxili qanunvericilik aktları da özünəməxsus əhəmiyyətə malikdirlər. Məsələn, Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli «Turizm haqqında» Qanununun 1-ci maddəsində turist statusunun əldə olunması üçün şəxsin müvafiq terminin tətbiqi dairəsinə aid edilməsi – istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olması tələb olunur (7).

Rusiya Federasiyasının 24 noyabr 1996-cı il tarixli «Rusiya Federasiyasında turizm fəaliyyətinin əsasları haqqında» Qanununun 1-ci maddəsinə əsasən turist dedikdə, 24 saatdan 6 ayadək fasiləsiz müddət ərzində, bir gecədən az olmayaraq həyata keçirilən sağlamlaşdırma, idraki, peşə-işgüzar, idman, dini və digər ödənişsiz fəaliyyətlə məşğul olmaq məqsədilə müvəqqəti getdiyi ölkədə yaşayan şəxs başa düşülür (8). Ukraynanın «Turizm haqqında» 15 sentyabr 1995-ci il Qanununun 1-ci maddəsi isə «turist» və «səyahətçi» anlayışını eyniləşdirərək onu özünəməxsus formada ifadə edir. Belə ki, həmin normativ-hüquqi aktın tələbinə əsasən turist (və ya səyahətçi) istənilən ödənişli fəaliyyətlə məşğul olmadan 24 saatdan 6 ayadək müddətdə qalmaq məqsədilə Ukraynaya və ya qanunla qadağan edilməmiş müxtəlif dövlətə səyahəti həyata keçirən və göstərilən müddət ərzində olduğu ölkə yaxud ərazidə qalmaq öhdəlikli şəxsi əhatə edir (9). Turistlərin hüquqi statusunun

müəyyənləşdirilməsində Qazaxıstan qanunvericiliyi isə nisbətən fərqli anlayışı özündə birləşdirir. Belə ki, 13 iyun 2001-ci il tarixli «Qazaxıstan Respublikasında turizm fəaliyyəti haqqında» Qanunun 1-ci maddəsinə uyğun olaraq, turist dedikdə, sağlamlaşdırma, idraki, peşə-işgüzar, idman, dini və ödənişli fəaliyyətlə məşğul olmadan digər məqsədlərlə 24 saatdan 1 ilədək olan müddət ərzində müvəqqəti yaşadığı dövlətə baş çəkən və orada bir gecədən az olmayaraq qalan fiziki şəxs başa düşülür (10). Özbəkistan Respublikasının «Turizm haqqında» 20 avqust 1999-cu il Qanununun 1-ci maddəsində «turist» termini isə ümumi mənada ifadə edilmişdir. Belə ki, göstərilən müddəanın tələbinə əsasən turist kateqoriyasına müvafiq ölkə ərazisi üzrə və ya digər dövlətə səyahəti həyata keçirən fiziki şəxslər daxildir (11).

Bir sıra müəlliflər isə müvafiq məsələyə başqa kontekstdən yanaşırlar. Məsələn, İsrail tədqiqatçısı N. Urayeli «səyahət edən işçilər» və «işləyən turistlər» adlanan şəxslər qrupunu aşağıdakı dörd kateqoriyaya ayırır:

- **Səyahət edən peşəkar işçilər.** Müvafiq kateqoriyaya biznesmenlər, müxtəlif sferada işləyən şəxslər, o cümlədən peşəkar idmançılar aid edilir.
- **Miqrasiya edən turizm işçiləri.** Göstərilən anlayış isə turizm biznesində çalışan şəxsləri (barmen, ayaq üzrə xizəyi üzrə təlimatçı və s.) özündə birləşdirir.
- **Qeyri-mütəşəkkil turizm işçiləri.** Müəllifin fikrincə, iş axtarmaq naminə səyahət edənlər deyil, işləyən şəxslər mövcud kateqoriyanın tərkib hissəsini təşkil etməlidir.
- **İstirahət zamanı çalışan turistlər.** Bu kateqoriya şəxslər işin və turizmin qarşılıqlı əlaqəsi üzrə fərqləndirilən müxtəlif fərdlər qrupu sayılır (12).

Kvartalnov fəaliyyət sferası kimi turizmin əsas anlayışlarından biri kimi turistləri müxtəlif psixi və fiziki tələbatları, turizm fəaliyyətində həmin şəxslərin iştirakı istiqamətləri və növlərini müəyyən edən təbiəti özündə birləşdirən şəxslər hesab edir (13). Öz zamanında V.E. İva-nov isə qeyd edirdi ki, əcnəbi turistlər dedikdə, turizm sənədləri üzrə müəyyən müddətə SSRİ-yə gələn və ya onları SSRİ-nin ərazisində alan əcnəbilər başa düşülür (14). N.S. Barçukova isə turistləri onların əldə etdikləri turların əsasında gəldiyi dövlətdə olan şəxslər kimi göstərir (15).

Bir sıra mənbələrdə turizmin iştirakçıları sırasında beynəlxalq (xarici) və daxili turistlərin adları çəkilir, onların tərifi verilir. Belə ki, 1937-ci ildə Millətlər Cəmiyyətində fəaliyyət göstərmiş Statistik Ekspertlər Komitəsi həmin anlayışı izah edərək göstərmişdir ki, əcnəbi turist dedikdə, adi daimi yaşayış yerinin yerləşmədiyi ölkə sayılmayan və onun adi mühitindən kənarda olan digər ölkəyə ödənişsiz fəaliyyətlə məşğul olmaq məqsədilə 24 saatdan az olmayaraq turizm məqsədilə səyahət edən şəxs başa düşülür (16). Onların dairəsinə istirahət, sağlamlaşdırma, qohumlara baş çəkmə, seminar, konqreslərdə iştirak, işgüzar məqsədlərlə, dəniz kruizlərində (hətta onlar gəmidə 24 saatdan az bir müddətdə olduqları təqdirdə belə) səyahət edən şəxslər aid edilir. Lakin əcnəbi işçilər, 6 aydan çox müddətə təhsil məqsədilə səyahət edən şəxslər, hərbi qulluqçular, onlarn ailə üzvləri (turizm məqsədilə hər hansı ölkəyə getmə halları istisna olmaqla), qaçqınlar, məcburi köç-

künlər, köçərilər, tranzit səyahətçilər, diplomatik xidmətin işçiləri, onların ailə üzvləri, diplomatik xidmətin işçilərinin qulluqçuları, gəmi və qatarların vaqonlarında gecələyən dəniz gəmiləri, dəmiryol qatarlarının ekipaj üzvləri və s. kateqoriya insanlara müvafiq terminin tətbiqi dairəsi şamil olunmur (17). Daxili turistlərə isə tamamilə başqa istiqamətdən yanaşılır. Belə ki, ilk növbədə, həmin statusun əldə edilməsi üçün müvafiq şəxsin öz ölkəsi hüdudlarında turizm məqsədilə yerdəyişməsi, hərəkət etməsi tələb olunur. Digər tərəfdən isə onun 12 aydan çox olmayan müddətdə həyata keçirilməsi özünü büruzə verməlidir. Bundan əlavə, mövcud anlayışın tətbiqi sferasına aid edilməyən şəxslərin dairəsi də müəyyənləşdirilmişdir. Həmin kateqoriyaya hərbi öhdəliklərin icrası və ya manevrlərdə olan hərbi qulluqçular, onların ailə üzvləri, ölkə ərazisində müəssisələrdə çalışmaq məqsədilə və əlaqədar yerini dəyişən şəxslər, tranzit sərnişinləri, qatarların vaqonlarında gecələyən turist qruplarının iştirakçıları, gəmi və ya vaqonlarda gecələyən dəniz gəmiləri, dəmiryol qatarlarının ekipaj üzvləri və s. şəxslər şamil edilir (18). Turizm ehtiyatları üzrə ABŞ Milli Komitəsinin 1973-cü ildə işıq üzü görən nəşrlərində «daxili turist»lərə anlayış verilmişdir. Həmin sənədlərin müddəalarına əsasən daxili turist dedikdə, ödənişli fəaliyyətlə məşğul olmaq istisna olmaqla, işgüzar, idraki, şəxsi və digər məqsədlərlə 50 mil məsafədə yerini dəyişmək şərtilə, bir gecə ərzində həyata keçirilən və ya həmin gün geriyə qayıtma ilə müşayiət olunan, özünün daimi yaşayış yerindən kənara səyahət etməyən şəxslər başa düşülür (19).Lakin müasir qanunvericilik praktikasında belə təsnifatın həyata keçirilməsinə və onların anlayışlarının üzə çıxarılmasına rast gəlinmir. Məs: «Turizm haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində daxili turizm (AR-də yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin AR hüdudları daxilində səyahətləri) və xarici turizmin (AR-də yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə səyahətləri) mənaları izah edilsə də, onların iştirakçıları hesab edilən şəxslərin dairəsi müəyyən edilməmişdir (20).

Turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı məsələlər özündə, həmçinin onların müxtəlif sferada mövcud olan hüquq və vəzifələrini də birləşdirir. Həmin hüquq və vəzifələr müxtəlif beynəlxalq sənədlərdə və milli qanunvericilik aktlarında təsbit edilmişdir. Burada əsas sənəd qismində Ümumdünya Turizm Təşkilatının Vİ sessiyasında qəbul olunmuş 1985-ci il tarixli Turizm Xartiyası və Turist Məcəlləsi çıxış edir. Sənədin belə adlandırılmasında başlıca məqsəd müvafiq sahədə dövlətlərin və turistlərin hüquq və vəzifələrinin ayrıca şəkildə ifadə olunmasıdır. Ona görə də Turizm Xartiyası turizm və onun inkişafı ilə bağlı birbaşa dövlətlərə münasibətdə normaları müəyyən etsə də, Turist Məcəlləsi sırf turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından zəruri müddəaları özündə əks etdirir. Belə ki, göstərilən Məcəllənin bir sıra müddəaları turistlərin davranışlarına münasibətlərə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsinə istiqamətlənmişdir. Bunun bariz nümunəsi kimi onların aşağıdakı vəzifələrini göstərmək olar: öz davranışları ilə milli, beynəlxalq səviyyədə xalqlar arasında dostluq və qarşılıqlı anlaşmaya kömək etmək, bununla da sülhün qorunmasına yardım göstərmək; tranzit və müvəqqəti getdiyi yerlərdə bərqərar olan siyasi, sosial, əxlaqi və dini quruluşa hörmət etmək, qüvvədə olan qanun və qaydalara tabe olmaq; yerli əhalinin

adətlərinə, etiqadlarına və hərəkətlərinə münasibətdə daha böyük ehtiram göstərmək və onların təbii və mədəni əmlakına hörmətlə yanaşmaq; turistlər və yerli xalqlar arasındakı iqtisadi, sosial və mədəni fərqlərin nəzərə çarpdırılmasından çəkinmək; bəşəriyyətin ümumi irsinin ayrılmaz hissəsi olan turistləri qəbul edən yerli xalqın mədəniyyətinə həssas olmaq; fahişəlik məqsədilə digərlərinin istismarına mane olmaq; narkotik vasitələrin və digər qadağan edilmiş preparatların ticarəti, daşınması və istifadə edilməsindən çəkinmək.

Həmin vəzifələrlə yanaşı, turistlərin müəyyən hüquqları da mövcuddur. Onlara aşağıdakılar aid edilir: onların səyahətləri zamanı verilən imkan və şərtlər, müvəqqəti getdikləri rəsmi turizm təşkilatları, turist xidmətlərinin tədarükçüləri barədə obyektiv, dəqiq və müfəssəl məlumat almaq; şəxsi və öz əmlaklarının təhlükəsizliyi, istehlakçı kimi hüquqlarının müdafiəsi; özünü xüsusilə yerləşdirmə vasitələrində, ictimai qida və nəqliyyatda büruzə verən müvafiq ictimai gigiyenanın qorunması, infeksion xəstəliklərin və bədbəxt hadisələrin qarşısının alınması üzrə səmərəli tədbirlər barədə məlumatlandırılma, həmçinin səhiyyə xidmətindən maneəsiz istifadə imkanlarının həyata keçirilməsi; ölkənin daxilində, o cümlədən xarici aləmlə təxirəsalınmaz və səmərəli şəkildə ictimai əlaqədə olmaq; turistlərin hüquqlarının müdafiəsi üçün zəruri olan inzibati, hüquqi prosedur və təminatlar; öz dinlərinə etiqad etmək imkanları və bu məqsədlər üçün müvafiq şəraitin mövcudluğu (21).

Turizmlə bağlı ayrı-ayrı münasibətlərin tənzimlənməsi, o cümlədən turistlərin müvafiq ölkə daxilində hüquq və vəzifələrinin müəyyənləşdirilməsi dövlətdaxili qanunvericilik aktlarının bir hissəsi sayılır. Nümunə qismində «Turizm haqqında» AR Qanununun 6-7-ci maddələrini göstərmək olar. Belə ki, 6-cı maddədə turistlərin getdiyi ölkəyə daxil olma, orada qalma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizədə olan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə zəruri və dürüst informasiya almaq, həmin yerdə müəyyən məhdudiyyətlər nəzərə alınmaqla, hərəkət-yerdəyişmə hüququndan, turizm ehtiyatlarından sərbəst istifadə etmək, həyatının və sağlamlığının qorunması üçün təxirəsalınmaz tibbi yardım alınması hüququna malik olmaq, getdiyi ölkənin (yerin) hakimiyyət və yerli özünüidarə orqanlarından hüquqi və digər təxirəsalınmaz yardım növləri göstərilməsində kömək almaq və s. hüquqları mövcuddur. Turistlərin vəzifələri isə 7-ci maddənin tərkib hissəsini təşkil edir. Onlara getdiyi ölkənin qanunlarına riayət etmək, onun sosial quruluşuna, adətlərinə, ənənələrinə, dini etiqadlarına hörmət etmək, müvəqqəti olduğu yerdə ətraf mühitin mühafizə qaydalarına riayət etmək, təbiət, tarix və mədəniyyət abidələrinə qayğı ilə yanaşmaq, həmin və yolboyu keçdiyi dövlətlərdə gəlmə, getmə qaydalarına riayət etmək, səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına əməl olunması kimi öhdəliklər aiddir (22). 15 sentyabr 1995-ci il tarixli «Turizm haqqında» Ukrayna Qanununun VI bölməsi bilavasitə turistlərin hüquq və vəzifələrinə həsr olunmuşdur. Hüquqlar sırasına turist xidmətləri kompleksinin alınması, şəxsi təhlükəsizlik, həyatın, sağlamlığın, istehlakçı hüquqlarının və əmlakın mühafizəsi, xəstəlik halında müvafiq tibbi yardımın əldə edilməsi, müqavilə şərtlərinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi halında maddi və mənəvi ziyanın ödənilməsi və s. aid edildiyi halda, turistlərin vəzifələrinə

turizm xidmətlərinin təqdim olunması haqqında müqavilələrdə nəzərdə tutulmuş şərt və qaydalara riayət etmək, gəldiyi dövlətin siyasi və iqtisadi quruluşuna, ənənələrinə, adətlərinə, dini etiqadlarına hörmət etmək, gömrük və sərhəd qaydalarını yerinə yetirmək, tarixi, mədəni və təbii obyektlərin qorunmasına dair davranış qaydaları və tələblərinə riayət etmək, onların hüquqazidd fəaliyyəti nəticəsində dəymiş ziyanı ödəmək və s. daxildir. Bundan əlavə, Qanunun 23-cü maddəsi əcnəbi turistlərin hüquqi vəziyyətinin müvafiq qanunvericilik aktına – «Əcnəbilərin hüquqi statusu haqqında» Qanuna göndəriş etməklə tənzimlənməsini nəzərdə tutur. Xarici dövlətlərə səyahət edən Ukrayna vətəndaşlarının hüquq və vəzifələrinin isə olduğu dövlətin qanunvericiliyi və beynəlxalq sazişlər əsasında nizama salınması, həmçinin onların gəldikləri dövlətin qanunvericilik tələblərinə riayət etməsi ilə bağlı müddəalar isə 24-cü maddənin tərkib hissəsini təşkil edir (23).

«Qazaxıstan Respubllikasında turizm fəaliyyəti haqqında» 13 iyun 2001-ci il Qanununun 24-cü maddəsi isə turistlərin hüquqlarına aşağıdakıları aid edir: şəxsi və ya əmlak təhlükəsizliyinə qəsd olduğu hallarda konsulluğa, diplomatik, digər dövlət nümayəndəliyinə, o cümlədən turizm nümayəndəliyinə müraciət hüququ; müvəqqəti olduğu dövlətdə qəbul edilmiş məhdudlaşdırıcı tədbirlər də nəzərə alınmaqla, azad hərəkət etmək, turizm ehtiyatlarına sərbəst çıxış hüququ; təxirəsalınmadan tibbi yardım almaq hüququ; əcnəbi turistlərin hüquqi və digər yardım almasında Qazaxıstan Respublikasının dövlət hakimiyyəti orqanlarının yardım etməsi; Qazaxıstan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada turoperator və ya turagentlərin turizm xidmətlərinə dair müqavilələrin şərtlərinin yerinə yetirilməməsinə görə dəymiş zərərin və mənəvi ziyanın əvəzinin ödənilməsi və s.

Müvafiq qanunvericiliyə uyğun olaraq, turistlərin vəzifələri ilə bağlı bir sıra müddəalar müəyyənləşdirilmişdir. Onlara müvəqqəti gəldiyi ölkənin qanunvericiliyinə əməl edilməsi, səyahət etdikləri dövlətin təbii, tarixi və məbəni abidələrinə yaxın olan ətraf mühitin qorunub saxlanılması, gəliş-gediş qaydalarına riayət olunması, səyahətlər zamanı şəxsi təhlükəsizlik qaydalarnın yerinə yetirilməsi kimi normalar daxildir (24). 20 avqust 1999-cu il tarixli Özbəkistan Respublikasının «Turizm haqqında» Qanununun 14-cü maddəsinə müvafiq olaraq müəyyən edilmiş turistlərin hüquqları demək olar ki, yuxarıda göstərilən milli qanunvericilik aktları ilə tam uyğunluq təşkil edir. Lakin bir sıra fərqli məqamlar mövcuddur ki, bu da müvafiq kateqoriya şəxslərin müqavilələrin nəzərdə tutduğu turizm xidmətləri kompleksini əldə etmək, turların ümumi dəyərinin şərtləndirilmiş qiymətlərdən çox, o cümlədən fors-major halların mövcud olduğu təqdirdə, turizm fəaliyyətinin subyektlərinə ziyan vurmadan müqavilənin ləğv etmək kimi hüquqları ilə əlaqədardır. Onların vəzifələrinə gəldikdə isə buraya müqavilənin şərtlərinin yerinə yetirilməsi, gömrük və sərhəd nəzarətinə əməl olunması, olduğu dövlətin qanunvericiliyinə riayət edilməsi daxildir (25).

Rusiya Federasiyasının 24 noyabr 1996-cı il tarixli «Rusiya Federasiyasında turizm fəaliyyətinin əsasları haqqında» Qanununun 6-7-ci maddələri bilavasitə turistlərin hüquq və vəzifələrinə həsr edilmişdir. Belə ki, turistlərin hüquqlarına azad hərəkət etmək hüququ, müvəqqəti olduğu ölkədə qəbul edilmiş məhdudlaşdırıcı tədbirlər nəzərə alınmaqla, turizm ehtiyatlarına çıxış hüququ, istehlakçı hüquqlarının təmin

edilməsi və turistlərinin əmlakının mühafizəsi, onların hüquqi və digər təxirəsalınmaz yardım növlərinin əldə edilməsində müvəqqəti olduğu dövlətin hakimiyyət orqanları tərəfindən yardım alması, rabitə vasitələrinə maneəsiz çıxış hüququ və s. aiddir. Qanunun 7-ci maddəsi isə adıçəkilən kateqoriya şəxslərin vəzifələrini müəyyən edir. Onlara müvəqqəti olduğu dövlətin qanunvericiliyinə əməl etmək, onun sosial quruluşu, adətləri, ənənələri, dini etiqadına hörmətlə yanaşmaq, ətraf mühitin qorunması, müvafiq dövlətin təbii, tarixi və mədəni abidələrinə qayğı ilə yanaşılması, müvəqqəti gəldiyi və ya tranzit dövlətinin gəliş-gediş, qalma qaydalarına riayət edilməsi, səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına əməl edilməsi kimi müddəalar daxildir (26).

Turistlərin hüquq və vəzifələrinə həm də istehlakçıların hüquq və vəzifələri baxımından yanaşılır. Çünki turistlər getdikləri ölkədə bir qayda olaraq mal və xidmətlərin istehlakçısı qismində çıxış edirlər. Bunu hətta bir çox beynəlxalq aktlar da sübut edir. Belə ki, 1990-cı il tarixli «Hər şeyi əhatə edən səyahətlər, məzuniyyətlər və səfərlər haqqında» Aİ Direktivində «turist» terminini «istehlakçı» anlayışı əvəz edir (27). «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli AR Qanunu isə bu məsələyə tam şəkildə istehlakçıların hüquqları baxımından hüquqi qiymət verir. Belə ki, Qanunun 3-cü maddəsində onların aşağıdakıları özündə təsbit edən subyektiv imkanları sadalanır: malların (işlərin və xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsi; istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olması; malların (işlərin, xidmətlərin) miqdarı, çeşidi və keyfiyyəti haqqında dolğun və düzgün məlumat əldə edilməsi; qanunvericilikdə nəzərdə tutulan hallarda, lazımi keyfiyyəti olmayan, habelə, insanların sağlamlığına, həyatına təhlükəli olan malların (işlərin, xidmətlərin) vurduğu zərərin ödənilməsi; öz hüquqlarının və qanuni mənafelərinin mübadiləsi üçün səlahiyyətli dövlət orqanlarına və məhkəməyə müraciət olunması; ictimai təşkilatlarda (istehlakçılar birliyində) birləşmə (28).

Turistlərin istehlakçı xarakteri ilə müşayiət olunan hüquqi statusu, həmçinin onun iqtisadiyyata təsiri məsələləri də müxtəlif elmi-tədqiqat araşdırmalarının tədqiqat obyekti olmuşdur. Məsələn, bir sıra müəlliflər hesab edirlər ki, əldə etdikləri turlar əsasında dövlətin ərazisində 24 saatdan az olmayan turistlərin istehlakçı xüsusiyyəti xarici valyutanın ölkə ərazisinə gətirilməsi ilə xarakterizə olunur (29). Bir sıra hallarda isə təcrübədə turistlərin valyutasız mübadiləsi vəziyyətinə rast gəlinir. Lakin onu da qeyd etmək lazımdır ki, bu, bir çox dövlətlərin (məs: Hindistan və s.) qanunvericiliyi ilə qadağan edilmişdir (30). Bir məsələni də xüsusilə göstərmək lazımdır ki, turistlərin hər hansı bir ölkənin ərazisinə gəlməsi tam olaraq istehlak xarakteri daşımalıdır. Yəni, turistlər gəldikləri ölkənin ərazisində heç də maddi nemətlərin istehsalçısı qismində çıxış etmir. Hüquqi baxımdan isə istehlakçının statusu heç də həmişə turist xidmətləri müqaviləsinin tərəfi kimi turistlərə münasibətdə tanınmır (31). Göstərilənlərlə yanaşı, turistlərin hüquqi statusuna aid edilən rəhbər başlanğıcların da üzə çıxarılması onların hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində özünəməxsus rol oynayır. Həmin prinsiplər beynəlxalq ümumi hüquq, xüsusilə insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, beynəlxalq iqtisadi hüquq kimi sahələrlə tam qarşılıqlı əlaqədə olmalıdır. Bunlar aşağıdakılardan

ibarətdir:

**Turistlərin gəldiyi dövlətin ərazisində hüquqlarının qorunması;**

**Əcnəbilərin bir növü sayılan turistlərə müəyyən rejimin verilməsi prinsipi.** Turistlərə təqdim edilən rejimlər daha çox dövlətdaxili qanunvericiliyin təkmilləşdirilməsi və ölkə daxilində onların hüquqi statusunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu gün turizmin inkişafı Azərbaycan Respublikasının digər dövlətlərlə bu sahədə bağladığı sazişlərin sayının artması, hər şeydən öncə, turistlərin ölkəmizə axının güclənməsi onların statusunun daha dəqiq meyarlarla müəyyən olunmasını tələb edir. Bu zaman turistlərə verilməli rejim ön plana çəkilməlidir. Onu da qeyd edək ki, elmi-tədqiqat əsərlərində əcnəbilərin təsnifatı aparılarkən turistlər də onların bir növü kimi göstərilir (32).

Məlum olduğu kimi milli rejim dedikdə, dövlətin öz vətəndaşlarının malik olduqları hüquqlarla əcnəbilərə verilmiş subyektiv imkanlar bərabərləşdirilir.

Əcnəbilərə (o cümlədən onların bir növü kimi turistlərə) verilən hər üç rejim (milli rejim, daha əlverişli rejim, xüsusi rejim) öz-özlüyündə aşağıdakıları nəzərdə tutur: əcnəbilərin olduqları dövlətin qanun və qaydalarına riayət etməsi; olduqları dövlətin qanunlarına müvafiq olaraq əcnəbilərin cinayət mülki və inzibati məsuliyyətə cəlb olunması; müəyyən vəzifələrin tutulması və ayrı-ayrı fəaliyyət növləri ilə məşğul olmanın qadağan edilməsi (33). Əcnəbilərə isə Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsində müvafiq olaraq, milli rejim tətbiq olunur (34). Buradan da belə bir qənaətə gəlmək olar ki, əcnəbilərin bir növü kimi turistlərə milli rejim verilməlidir. Ancaq burada tam həcmdə milli rejim prinsipindən deyil, milli standartlar rejimindən danışmaq lazımdır. Terminoloji baxımdan, hüquq ədəbiyyatında milli rejim milli standartların rejimi prinsipindən fərqlənir. Onu da qeyd etmək lazımdır ki, əcnəbilər status baxımından vətəndaşlarla tam mənada bərabərliyə malik ola bilməzlər. Fikrimizcə, əcnəbilərin bir növü hesab edilən turistlərə tətbiq edilən rejimi daha dəqiq ifadə etmək və onun tətbiq sferasının hədlərini tam həcmdə müəyyən etmək üçün bu anlayışdan istifadə olunmalıdır. Milli rejim termini isə burada minimum həddi bildirir. Ona görə də «Turizm haqqında» 4 iyun 1999-cu il Azərbaycan Respublikası Qanununa müvafiq müddəa əlavə edilməlidir. Çünki o, turistlərin hüquqi statusunun müəyyənləşdirilməsində özünəməxsus rola malikdir.

**Qarşılıqlılıq prinsipi;**

**Turistlərin ayrı-seçkiliyə məruz qalmaması və onların bərabərliyi prinsipi.** İnsan hüquqlarının sahəvi rəhbər başlanğıcı kimi bərabərlik prinsipinin kontekstində nəzərdən keçirilən turistlərin bərabərliyi prinsipi özündə onların beynəlmiləl olması, hər hansı irqi, milli və digər əlamətlərə görə müvafiq kateqoriya şəxslərin hüquqlarının məhdudlaşdırılmamasını təsbit edir. Lakin həm əvvəlki, həm də indiki dövrlərdə bir sıra dövlətlərdə milli baxımdan məhdudiyyətlərin həyata keçirilməsi hallarına rast gəlinir. Məsələn, SSRİ-də mehmanxanalarda yerləşdirmə, sərhədlərdən keçirilmə zamanı gələn turistin pasportunda onun milliyyətinin göstərilməsi tələb olunurdu. Bundan əlavə, hal-hazırda BƏƏ yəhudilərin və ya pasportunda İsrail dövlətinin qeydinin və başqa əlamətin mövcud olduğu digər şəxslərin ölkəyə daxil olmasına icazə

vermir. Bir sıra hallarda isə cinsi bərabərliyə zidd olan məhdudiyyətlərin qoyulması halları mövcuddur ki, bu da dövlətin mənəvi dəyərləri və əxlaqi ideyalarının qorunması ilə əlaqələndirilir. Belə ki, Avstraliya və BƏƏ-də gənc qadınların ölkəyə gəlişinə qadağalar qoyulur ki, bunun da əsas səbəbi qismində kütləvi emiqrasiyanın mövcudluğu və ya ayrı-ayrı fərdlərin fahişəlikdə iştirakı kimi məsələlərin olması göstərilir. Yuxarıda göstərilən müddəaların hüquqi qüvvəsi dövlətlərin ictimai, siyasi, əxlaqi maraqlarının qorunması ilə əlaqələndirilsə də, turistlərin bərabərliyi tam şəkildə bəyan edilməlidir. Müvafiq məsələ, o cümlədən turistlərin müxtəlif aspektlərdən ayrı-seçkiliyə məruz qalmaması beynəlxalq-hüquqi tənzimetmənin də əsas obyektini təşkil edir. Belə ki, mövcud prinsip 1954-cü il tarixli BMT-nin Turizm üzrə Konfransında möhkəmləndirilərək turistlər irqi, cinsi, dil və ya dini fərq qoyulmadan istənilən şəxs kimi göstərilmişdir (35). Lakin bir məsələni də qeyd etmək lazımdır ki, silahlı münaqişə şəraitində olduğu dövlətin vətəndaşlarının öz ölkəsinə turist kimi buraxılmaması heç də ayrı-seçkilik kimi qiymətləndirilməməlidir. Nümunə qismində Ermənistan-Azərbaycan silahlı münaqişəsini göstərmək olar.

**Turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi zamanı beynəlxalq standartların nəzərə alınması və onlara əməl edilməsi prinsipi.**

Beləliklə, deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələlərini təhlil edərkən, onlara aşağıdakı aspektlərdən yanaşma zərurətini qeyd etmək lazımdır:

- «Turist» anlayışı ilə bağlı universal və regional beynəlxalq-hüquqi normaların, o cümlədən milli qanunvericilik aktlarının unifikasiyasının həyata keçirilməsi. Müvafiq müddəanın mövcudluğuna əsas səbəb müxtəlif beynəlxalq-hüquqi aktlar və dövlətlərin qanunvericiliyində turistlərin ölkədə qalma müddətinin minimum və maksimum müddətlərinin fərqli qaydada müəyyənləşdirilməsidir. Məsələn, bir sıra sənədlərdə (Turistlər üçün gömrük güzəştləri haqqında 1954-cü il Konvensiyası, 1994-cü il 29 oktyabr tarixli «Turizm sahəsində MDB iştirakçı-dövlətlərinin əməkdaşlığının əsas prinsipləri haqqında Tövsiyəedici Qanunvericilik Aktı», Rusiya Federasiyasının 24 noyabr 1996-cı il «Rusiya Federasiyasında turizm fəaliyyətinin əsasları haqqında» Qanunu və s.) bu, 24 saatdan 6 ayadək müddəti əhatə etdiyi halda, digər qrup aktlarda (Azərbaycan Respublikasının «Turizm haqqında» 4 iyun 1999-cu il Qanunu, 13 iyun 2001-ci il tarixli «Qazaxıstan Respublikasında turizm fəaliyyəti haqqında» Qanunu və s. ) həmin müddət 24 saatdan 1 ilədək olan dövrü bildirir. Bundan əlavə, turistlər tərəfindən edilən səyahətlərin məqsədlərində də müəyyən fərqlər nəzərə çarpır ki, bu da onların unifikasiya məsələsini daha da zəruri edir.
- Onların müxtəlif statusa malik olan şəxs kimi (əcnəbi, istehlakçı və s.) hüquq və vəzifələrinin beynəlxalq, o cümlədən milli səviyyədə norma şəklində üzə çıxarılması. Bu, əsasən turistlərin gəldikləri ölkədə istehlakçı qismində çıxış etməsi və onların əcnəbilərə aid edilən konkret kateqoriyaya mənsubiyyəti ilə əlaqədardır.
- Turistlərə verilən rejimlərin dəqiq şəkildə ifadə olunması və onun normativ cəhətdən təsbiti. Əcnəbilərin bir növü sayılan turistlərə müəyyən rejimin verilməsi onların hüquqi statusunun dəqiq şəkildə müəyyən-

ləşdirilməsinə gətirib çıxara bilər. Doğrudur, bu, ilк baxışdan milli rejim və ya daha əlverişli rejim formasında təzahür etsə də, turistlərin yuxarıda göstərilən rejimlərdən hər hansı birinə mənsub olması halı qeyri-mümкündür. Çünкi müvafiq кateqoriya şəxslərin ölкədə qalma müddətinin tam fərqli olması və onların hər hansı ölкəyə gəlməsinin və ya digər formada yerdəyişməsinin xüsusi məqsədlərlə müşayiət edilməsi yuxarıda göstərilən müddəanın meydana gəlməsinin əsas səbəbi qismində çıxış edir.

- Turistlərin hüquqi statusunu nizama salan rəhbər başlanğıcların formalaşdırılması. Mövcud prinsiplərin müəyyənləşdirilməsi onların digər beynəlxalq-hüquqi normalarla müqayisədə daha çox ümumi xaraкter daşıması, beynəlxalq hüquq qaydası üçün çox mühüm əhəmiyyətə maliк olması, müvafiq sahədə meydana çıxan problemlərin həll edilməsi ilə əlaqədardır.

## ƏDƏBİYYAT


1. Международный туризм: правовые акты. Сост. Н.И.Волошин. М., 2000, с. 179-180.
2. Борисов К. Г. Международный туризм и право. М., 1999, с. 109-110.
3. Соколов Ю.Н. Международный туризм и его правовое регулирование. М., 1969, с. 250.
4. Рекомендации по статистике туризма. ООН, Нью-Йорк, 1994, с. 7-10.
5. Барчукова Н.С. Международное сотрудничество государств в области туризма. М., 1986, с. 33-34.
6. Международный туризм: правовые акты. Сост. Н.И.Волошин. М., 2000, с. 20.
7. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. II cild. Bakı, 2004, s. 728.
8. Квартальнов В.А. Туризм. М., 2003, с. 33.
9. www.asinfo.com.ua.
10. www.tourкz.com.
11. www. uzbeкtourism.uz.
12. Uriely N. «Travelling worкers» and «Worкing Tourists». Variations across the İnteraction between Worк and Tourism // İnternational Journal of Tourism Research, 2001, №3, p. 1-8.
13. Квартальнов В.А. Теория и практика туризма. М., 2003, с. 127.
14. Иванов В.Е. Правовое регулирование иностранного туризма в СССР. Учеб. пособие. М., 1972, с. 27.
15. Барчукова Н.С. Международное сотрудничество государств в области туризма. М., 1986, с. 17.
16. Organization for Economic Cooperation and development. Tourism Policy and İnternational Tourism in OCD Member-Countries. Paris, OECD, 1980, P. 5-7.
17. Квартальнов В.А. Теория и практика туризма. М., 2003, с. 134-135.
18. Квартальнов В.А. Туризм. М., 2003, с. 30-31.
19. National Tourism Resources Review Commission. Destination USA. Vol. 2. Domestic Tourism. Washington, 1973, p. 5.
20. Azərbaycan Respubliкasının Qanunlar Külliyyatı. II cild. Baкı, 2004, s. 729.
21. Международный туризм: правовые акты. Сост. Н.И. Волошин. М., 2000, с. 217-218.
22. Azərbaycan Respubliкasının Qanunlar Külliyyatı. II cild. Baкı, 2004, s. 731-732.
23. www.asinfo.com.ua.
24. www. tourкz.com.
25. www. uzbeкtourism.uz.
26. Биржаков М.Б. Введение в туризм. СПб., 2006, с. 496.

27. Сенин В.С. Организация международного туризма. М., 2004, с. 243-244.
28. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I cild. Bakı, 2004, s. 596.
29. Барчукова Н.С. Международное сотрудничество государств в области туризма. М., 1986, с.17.
30. Биржаков М.Б. Контракт на туристские услуги // Туристские фирмы. Вып. 8. СПб., 1995, с. 22
31. Ошноков А.Н. Гражданско-правовые договоры в сфере международного туризма. Автореф. дис….. канд. юрид. наук. М., 2002, с. 10.
32. Əliyev Ə. Xaricilərin təsnifatı. «Qanun» jurnalı, 1998, №5, s. 29.
33. Международное публичное право: Учебник. 3-е изд., перераб. и доп. Отв. ред. К.А.Бекяшев. М., 2004, с. 277.
34. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. I cild. Bakı, 2004, s. 20.
35. Биржаков М.Б. Введение в туризм. СПб., 2006, с. 91-98.

## ПРОБЛЕМЫ ПРАВОВОГО СТАТУСА ТУРИСТОВ: МЕЖДУНАРОДНЫЕ И ВНУТРИГОСУДАРСТВЕННЫЕ ПРАВОВЫЕ АСПЕКТЫ

**А.И.АЛИЕВ**

### РЕЗЮМЕ

Одним из основных областей мировой экономики является туризм. В статье различаются три формы сотрудничества в области туризма в рамках универсальных организаций. К этим формам относятся следующие: сотрудничество в рамках ООН и ВТО (в некоторых литературах их называют система сотрудничества ООН); сотрудничество, осуществляемое на уровнях специализированных учреждений ООН и других международных организаций; сотрудничество, осуществляемое универсальными международными неправительственными организациями в области туризма. В универсальном сотрудничестве большую роль играют также и некоторые международные не правительственные организации и организации не коммерческого характера.

## THE PROBLEM OF LEGAL STATUTE OF TOURİSTS: İNTERNATİONAL AND NATİONAL LEGAL ASPECTS

**A.İ.ALİEV**

### SUMMARY

One of the main field in the world economy is tourism. İt is diffrentiated three forms of cooperation in the field of tourism within universal orqanization in article. İt is concerning following: cooperation in the framewoк of UN and WTO (in some literatures they are called as UN collaboration system); cooperation carried out in the specialised entities of UN and other international organization; collaboration put into practices by universal international non-governmental organizations. Also some international non-governmental and non-commercial organizations play a greate role in universal cooperation.